# *Zərdab:* davamlı inkişafın uğurlu nəticələri




❒ ***Ümumrayon toplantısında 2016-cı ildə ictimai-siyasi və sosial-iqtisadi sahələrdə görülmüş işlər və qarşıda duran vəzifələr barədə Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayevin hesabat məruzəsində ötən il rayonun həyatında baş vermiş ən mühüm yeniliklər, nailiyyətlər və həllivacib problemlər, cari ildə qarşıda duran önəmli vəzifələr əksini tapdı.***

Natiq bildirdi ki, 2016-cı ildə respublikamızda gedən davamlı inkişaf prosesi Zərdab rayonunun da iqtisadiyyatının dinamik inkişafını və sakinlərin rifahının daha da yaxşılaşmasını təmin etmişdir. Ötən il rayonun həyatında ən yaddaqalan hadisə Prezident İlham Əliyevin və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın Zərdaba səfəri ollmuşdur. Mərkəzi Xəstəxanada əsaslı təmirdən sonra yaradılmış şəraitlə tanış olandan sonra tibb işçiləri və ictimaiyyət nümayəndələri ilə görüşdə çıxış edən dövlət başçısının "Şadam ki, bu gün də Zərdab rayonunun sürətli inkişafı üçün çox ciddi addımlar atılır", "Zərdab rayon sakinləri zəhmətkeşdirlər və çox fəaldırlar" deməsi zərdablıların fədakar əməyinə verilən ən yüksək qiymət olmuş, onları daha yaxşı işləməyə, ili sanballı uğurlarla başa vurmağa ruhlandırmışdır.

Səfərdən dərhal sonra "Zərdab şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında" Prezidentin 5 dekabr 2016-cı il tarixli sərəncamı ilə RİH-ə 3 milyon manat vəsait ayırmasını isə məruzəçi ölkə başçısının zərdablıların problemlərinin həllinə xüsusi qayğısı kimi qeyd etdi. O əlavə etdi ki, məhz Prezident İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına yönəlmiş dövlət proqramlarının uğurlu icrası nəticəsində son dövrdə Zərdab rayonunda əsas kapitala yönəldilmiş vəsait 30,5 dəfə, o cümlədən tikinti-quraşdırma işləri 40 dəfə artmış, genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüşdür.

Çox böyük diqqət və qayğıya, aparılan abadlıq-quruculuq işlərinə verdiyi yüksək qiymətə görə Zərdab RİH-in başçısı mötəbər kürsüdən zərdablıların Prezident İlham Əliyevə dərin təşəkkürünü və minnətdarlığını ifadə etdi.

Hesabat dövründə rayon iqtisadiyyatının əsas sahələrində 99 milyon 326 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 12 milyon 593 min manat və ya 14,5 faiz çoxdur. Məhsul, görülən iş və xidmətlərin 54 milyon 531 min manatı (54,9 faiz) kənd təsərrüfatının, 16 milyon 898 min manatı tikintinin (17 faiz), 24 milyon 187 min manatı ticarətin (24,4 faiz), 1 milyon 831 min manatı sənayenin (1,8 faiz), 1 milyon 286 min manatı nəqliyyatın (1,3 faiz), 593 min manatı poçt və rabitənin (0,6 faiz) payına düşmüşdür.

İqtisadiyyatının aparıcı sahəsi olan kənd təsərrüfatının inkişafı istiqamətində xeyli iş görülmüşdür. Pambıqçılığın inkişaf etdirilməsinə həsr olunmuş respublika müşavirəsində Prezident İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələrə uyğun olaraq rayonda konkret tədbirlər həyata keçirilmiş, 874 hektar sahədə çiyid səpini aparılmış, onun 832 hektarında normal çıxış alınmış, 1023 ton pambıq yığılmış, 900 ton xam pambıq tədarük olunmuşdur.

Ötən mövsümdə 17007 hektarda payızlıq taxıl əkilmiş, 52101 ton məhsul istehsal olunmuşdur ki, bu da ötən ildəkindən 2251 ton çoxdur. Hər hektardan məhsuldarlıq 30,6 sentner olmaqla əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,8 sentner artmışdır. 3 toxumçuluq təsərrüfatı 259 hektarda 780 ton fiziki çəkidə taxıl istehsal etmişdir.

İpəkçiliyin inkişaf etdirilməsi ilə bağlı rayonda ilk ildə xeyli iş görülmüş, 5710 kq barama əldə edilərək "Şəki-İpək" ASC-yə təhvil verilmişdir. 195 hektardan 3685 ton kartof, 154 hektardan 2453 ton tərəvəz, 31 hektardan 80 ton günəbaxan, 231 hektardan 7567 ton bostan məhsulları, 454 hektardan 3087,5 ton qarğıdalı, 70,5 hektardan 252 ton çəltik tədarük olunmuşdur. İri malın sayı 54569 başa, qoyun-keçilər 113009 başa çatmışdır. İl ərzində 43 min 732 sentner ət, 319 min 343 sentner süd, 8 milyon 74 min ədəd yumurta,1659 sentner yun istehsal olunmuşdur.

Hesabatda humanitar sahələrin ahəngdar işinin təşkil olunması, əhalinin elektrik enerjisi, qaz, su təchizatının yaxlaşdırılması ilə bağlı həyata keçirilmiş tədbirlərdən də bəhs olundu. Qəbul edilən qərarda sosial-iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin rifahının daha da yaxşılaşdırılması sahəsində həllini gözləyən məsələlərə diqqət yetirildi.

Sonda rayonun ictimai həyatında fərqlənənlərə Zərdab RİH-in fəxri fərmanları təqdim olundu.

***Ziyəddin SULTANOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Görkəmli alimin xatirəsinə ehtiram



❒ ***Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika və texnologiya fakültəsində ölkəmizdə fizika və onun tədrisi metodikası fənlərinin əsasını qoymuş alimlərdən biri, fizika-riyaziyyat elmləri doktoru, professor, SSRİ Pedaqoji Elmlər Akademiyasının ilk azərbaycanlı müxbir üzvü Abasqulu Ağabala oğlu Abaszadə adına auditoriya yaradılıb, otağın girişinə unudulmaz alim-pedaqoqun xatirə lövhəsi vurulub.***

Açılış mərasimində ADPU-nun rektoru, professor Cəfər Cəfərov bildirib ki, 1906-cı ildə Güney Azərbaycanın Təbriz şəhərində anadan olan, 10 yaşında Bakıya gəlib orta və ali təhsil ocaqlarında oxuyan, orta və ali məktəblərdə dərs deyən alim 1934-cü ildən ömrünün sonunadək 35 il müddətində Pedaqoji Universitetdə çalışıb. Çoxsaylı elmi-pedaqoji əsərin müəllifi, minlərlə tələbənin müəllimi olmuş professor Abasqulu Abaszadənin adına universitetdə auditoriyanın açılması onun xatirəsinin ölməzliyinin və doğma kollektivdə qədirbilənlik ənənəsinin yaşamasının daha bir ifadəsidir.

Fakültənin dekanı Arzu Daşdəmirov, akademiklər Bahadır Tağıyev və Cavad Abdinov, professorlar Edil Eyvazov və Şükür Əlizadə, Əməkdar müəllim Qiyas Quliyev unudulmaz alimlə bağlı xatirələrini bölüşüblər, onun fizika elminin və ali təhsilin inkişafında xidmətlərini vurğulayıblar.

Mərasimdə professor Abasqulu Abaszadənin həyat və fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib. Görkəmli alimin nəvəsi Rövşən Abaszadə babasının adını daşıyan auditoriyanın yaradılmasına görə ADPU-nun rəhbərliyinə təşəkkür edib.

***T.AYDINOĞLU,***
***"Xalq qəzeti"***